Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Yeşua Tapşırığı Öz Üzərinə Götürür

Müəllif: Edward Hughes
İllüstrasiya edən: Janie Forest
Uyğunlaşdıran: Ruth Klassen
Alastair P.
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Musa ölmüşdü. Yeşua bilirdi ki, Allah İsraillilərə başçılıq etmək üçün onu seçmişdi. Yeşua öz ordusunu hazırlamazdan əvvəl özünü hazırlamalı idi. Əgər xalq həmişə Onun Sözünə itaət edəcəksə, onda onlara qələbə və vəd olunmuş torpaqda mülk verəcəyini Allah Yeşuaya söz verdi.



İsraillilər Yeşuanın ardınca getməyi və həmişə Allahın Sözünə itaət etməyi vəd etdilər.



Yeni lider hikmətlə, böyük Yerixo şəhərinin müdafiəsini öyrənmək üçün Kənan torpağına casuslar göndərdi. Onların ilk döyüşü orada olacaqdı.



Kimsə Yerixonun padşahına şəhərdə casusların olduğunu dedi.  O, onları tapmaq üçün öz əsgərlərini göndərdi. Axtarış casusların qaldığı Raxavın evindən başladı. Əsgərlər onun qapısını möhkəm döydülər.  Raxav tez casusları sərdiyi kətan liflərin altında gizlətdi.

Əsgərlər gedəndən sonra Raxav casusları şəhər divarlarından al-qırmızı kəndir vasitəsilə sağ-salamat aşağı endirdi. Nə üçün o, casuslara kömək etdi? Çünki o bilirdi ki, Allah onlarladır. O istəyirdi ki, Allah onun həyatını qorusun. Casuslar Raxavı və onun ailəsini xilas etmələrinə söz verdilər.



Yerixoya çatmazdan əvvəl İsraillilər Kənana, vəd olunmuş torpağa getmək üçün İordan çayını keçməli idilər. Lakin orada körpü yox idi! Adamlar necə keçə bilərdilər?



Allah Yeşuaya dedi ki, kahinlər içərisində On Əmr olan Əhd sandığını daşıyaraq, əsgərlərin və xalqın önündə getməlidirlər.  Kahinin ayağı çayın kənarına dəyəndə Allah möcüzə etdi.  Allah suyun içində quru yol açdı.



Bütün xalq sağ-salamat keçəndən sonra onlar on iki böyük daşı çayın dibinə qoydular və digər on iki daşı Kənanın çayı sahilinə qoydular.  Bunlar xalqın öz övladlarına Allahın qüdrətli gücünü və sevgisini xatırlatmaq üçün idi.





Yerixonun güclü,
qalın divarları var idi.
Yeşua öz hücumunu
planlaşdırarkən, Allah
İsrailin yeni başçısına
döyüşü Allah Öz xalqı
üçün qazanacağını
xatırlatmağa Göylərdən
Öz ordusunun
Kapitanını göndərdi.



Allah Yeşuaya Yerixoya necə hücum etməyi dedi. Bu çox qəribə bir plan idi.  Allahın xalqı şəhərin ətrafında altı gün və yeddinci gündə yeddi dəfə addımlamalı idi.  Sonra onlar şeypurları çalmalı və çığırmalı idilər - şəhərin divarları dağılacaqdı!

Yeşua və onun ordusu Allahın əmr etdiyi kimi etdi. Yəqin ki, Yerixodakı adamlar onlara gülürdülər. Ancaq yeddinci gündə yeddinci yürüşdən sonra kahin şeypuru çaldı. Allahın da vəd etdiyi kimi…YERİXONUN DİVARLARI DAĞILDI!









Divarda yalnız Raxavın ailəsi təhlükəsiz idi. O, al-qırmızı kəndiri pəncərədən asmışdı. Yeşuanın adamları cəld Raxavı və onun ailəsini qurtardılar. Sonra Yerixo Allahın əmr etdiyi kimi dağıldı.



Yeşua Yerixonun
qızıl-gümüşünü və xəzinələrini
təntənəli surətdə Allahın xidmətinə
həsr etdi.  Sonra o, zalım şəhəri yenidən tikən hər
bir kəsi lənətlədi.  Tezliklə Kənandakı hər bir kəs
Yeşuanın Yerixonu necə məğlub etməsi haqqında
eşitdi.  Onlar bildilər ki, Allah Öz xalqı ilədir.

# Yeşua Tapşırığı Öz Üzərinə Götürür

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yeşua 1-6

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**